RƏSMİ
BÜLLETEN

ОФИЦИАЛЬНЫЙ
БЮЛЛЕТЕНЬ

**1996-cı ildən nəşr edilir**

**Издается с 1996 года**


Dərc olunma tarixi: 28.11.2025

Дата публикации: 28.11.2025

Şəhadətnamə
№ 350


## Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyi

### Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzi

# SƏNAYE MÜLKİYYƏTİ

**İxtiralar**
**Faydalı modellər**
**Sənaye nümunələri**
(aylıq rəsmi bülleten)

# ПРОМЫШЛЕННАЯ СОБСТВЕННОСТЬ

(официальный ежемесячный бюллетень)

**Изобретения**
**Полезные модели**
**Промышленные образцы**


**№ 11**
**Bakı - 2025**

# Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyi

## Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzi


**Redaksiya heyəti**

**Kamran İmanov** — **Redaksiya heyətinin sədri**,
Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri

**Redaksiya heyətinin üzvləri**

**Xudayət Həsənli** — **Redaksiya heyətinin sədr müavini,**
Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin Aparatının rəhbəri

**Gülnarə Rüstəmova** — Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədrinin müşaviri

**Anar Hüseynov** — Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin tabeliyində olan Patent və Əmtəə Nişanlarının Ekspertizası Mərkəzinin direktoru

**Rəcəf Orucov** — Azərbaycan Respublikası Əqli Mülkiyyət Agentliyinin Əqli mülkiyyətin təhlili və siyasəti şöbəsinin müdiri

# İXTİRALARA, FAYDALI MODELLƏRƏ VƏ SƏNAYE NÜMUNƏLƏRİNƏ AİD BİBLİOQRAFİK MƏLUMATLARIN İDENTİFİKASİYASI ÜÇÜN BEYNƏLXALQ INID (ÜƏMT ST.9 və ST.80 STANDARTLARI) KODLARI

**(11) - patentin nömrəsi / beynəlxalq qeydiyyat nömrəsi**
**(15) - beynəlxalq qeydiyyat tarixi**
**(19) - ÜƏMT ST.3 standartına müvafiq olaraq dərc edən idarə və ya təşkilatın kodu və yaxud digər identifikasiya vasitələri**
**(21) - iddia sənədinin qeydiyyat nömrəsi**
**(22) - iddia sənədinin verilmə tarixi**
**(23) - sərgi ilkinliyi tarixi**
**(28) - iddia sənədinə daxil olan sənaye nümunələrinin nömrələri**
**(31) - ilkin iddia sənədinin nömrəsi**
**(32) - ilkinlik tarixi**
**(33) - ilkinlik ölkəsinin kodu**
**(44) - iddia sənədinin dərc edilmə tarixi**
**(45) - mühafizə sənədinin verilməsi barədə bu, yaxud daha erkən tarixdə qəbul olunmuş qərara uyğun olaraq patent sənədinin mətbəə və ya digər analoji üsullarla dərc edilmə tarixi / beynəlxalq qeydiyyata alınmış sənaye nümunəsinin dərc edilmə tarixi**
**(46) - patent sənədinin düsturunun (düsturun bəndlərinin) ümumi tanışlıq üçün təqdim olunma tarixi / sənaye nümunəsinin mühüm əlamətlərinin siyahısının dərc edilmə tarixi**
**(51) - beynəlxalq patent təsnifatının (BPT) indeksi / sənaye nümunələrinin beynəlxalq təsnifatının (SNBT) indeks(lər)i**
**(54) - ixtiranın / faydalı modelin / sənaye nümunəsinin adı**
**(56) - təsvir mətndən ayrı verildiyi halda, əvvəlki texniki səviyyəli sənədlərin siyahısı**
**(57) - ixtiranın / faydalı modelin referatı və ya düsturu / sənaye nümunəsinin mühüm əlamətlərinin siyahısı**
**(62) - hazırkı sənədin ayrıldığı daha əvvəlki iddia sənədinin nömrəsi və əgər varsa verilmə tarixi**
**(67) - patent verilməsi üçün faydalı modelə dair iddia sənədinin və ya qeydiyyatın əsaslandığı iddia sənədinin nömrəsi və verilmə tarixi və ya faydalı modelə verilmiş patentin nömrəsi**
**(71) - iddiaçı(lar), onun (onların) yaşayış yeri və ya olduğu yer barədə məlumat**
**(72) - müəllif(lər), onun (onların) yaşayış yeri barədə məlumat**
**(73) - patent sahib(lər)i, onun (onların) yaşadığı yer və ya olduğu yer barədə məlumat**
**(74) - iddia sənədində göstərildiyi halda patent müvəkkili və ya nümayəndə, onun yaşadığı yer barədə məlumat**
**(82) - beynəlxalq iddia sənədində qeyd olunan məlumatlar**
**(86) - iddia sənədinin (PCT proseduru üzrə) nömrəsi və verilmə tarixi**
**(87) - iddia sənədinin (PCT proseduru üzrə) nömrəsi və dərc edilmə tarixi**

## МЕЖДУНАРОДНЫЕ КОДЫ INID (СТАНДАРТЫ WIPO СТ.9 и СТ.80) ДЛЯ ИДЕНТИФИКАЦИИ БИБЛИОГРАФИЧЕСКИХ ДАННЫХ, ОТНОСЯЩИХСЯ К ИЗОБРЕТЕНИЯМ, ПОЛЕЗНЫМ МОДЕЛЯМ И ПРОМЫШЛЕННЫМ ОБРАЗЦА

**(11) - номер патента / номер международной регистрации**
**(15) - дата международной регистрации**
**(19) - код в соответствии со стандартом ВОИС ST.3 или другие средства идентификации ведомства или организацию, осуществивших публикацию документа**
**(21) - регистрационный номер заявки**
**(22) - дата подачи заявки**
**(23) - дата выставочного приоритета**
**(28) - номера промышленных образцов, включенных в заявку**
**(31) - номер приоритетной заявки**
**(32) - номер приоритета**
**(33) - код страны приоритета**
**(44) - дата публикации заявки**
**(45) - дата публикации типографским или иным аналогичным способом патентного документа, по которому на эту или более раннюю дату было принято решение о выдаче охранного документа / дата публикации получившего международную регистрацию промышленного образца**
**(46) - дата предоставления для всеобщего ознакомления формулы (пунктов формулы) патентного документа / дата публикации перечня существенных признаков промышленного образца**
**(51) - индекс Международной патентной классификации (МПК) / индекс(ы) Международной классификации промышленных образцов (МКПО)**
**(54) - название изобретения / полезной модели / промышленных образца**
**(56) - список документов предшествующего уровня техники, если он дается отдельно от описательного текста**
**(57) - реферат или формула изобретения / полезной модели / перечень существенных признаков промышленного образца**
**(62) - номер, и если это возможно, дата подачи более ранней заявки, из которой, выделен настоящий документ**
**(67) - номер и дата подачи заявки на патент или номер выданного патента, на которой основаны настоящая заявка на полезную модель или ее регистрация**
**(71) - сведения о заявителе(ях), его(их) местожительстве или местонахождении**
**(72) - сведения об изобретателе(ях), его(их) местожительстве**
**(73) - сведения о патентовладельце(ах), его(их) местожительстве или местонахождении**
**(74) - сведения о представителе или патентном поверенном, если он указан в заявке, его местожительстве**
**(82) - заявления, содержащиеся в международной заявке**
**(86) - номер и дата подачи международной заявки (по процедуре PCT)**
**(87) - номер и дата публикации международной заявки (по процедуре PCT)**

**BÖLMƏ A**

**İNSANIN HƏYATİ TƏLƏBATLARININ TƏMİN EDİLMƏSİ**

**A 61**

**(21) a 2025 0076**
**(22) 29.04.2025**
**(51)** ***A61Q 5/12*** (2006.01)
***A61Q 7/00*** (2006.01)
***A61K 8/00*** (2006.01)
***A61K 8/97*** (2006.01)
**(71) Bədəlova Vüsalə Nəriman qızı (AZ)**
**Sadiqov Tofiq Müzəffər oğlu (AZ)**
**(72) Həsənova Minarə Yunis qızı (AZ)**
**Məmmədova Zümrüd Əmən qızı (AZ)**
**İsmayılova Vüsalə Məmmədqulu qızı (AZ)**
**Qafarova Mehriban Arzuman qızı (AZ)**
**Əlibəyli Xəyalə Şikar qızı (AZ)**
**Qədirova Nuray Oktay qızı (AZ)**
**Əlibəyli Elmin Emin oğlu (AZ)**
**Alışlı Nuranə Şahmirzə qızı (AZ)**
**Bədəlova Vüsalə Nəriman qızı (AZ)**
**Abdullayeva İradə Oruc qızı (AZ)**
**(54) "SAÇ KÖKLƏRİNİ MÖHKƏMLƏNDİRMƏK ÜÇÜN LOSYON"**

**(57)** İxtira kosmetika sənayesinə, xüsusilə saça qulluq üçün istifadə edilən fitopreparatlara aiddir. Efir yağları kimi tərkibində aloe şirəsi, aloe, mərsin, gicitkən, gənəgərçək və rozmarin yağlarını komponentlərin aşağıdakı nisbətində saxlayan saç köklərini möhkəmləndirmək üçün losyon iddia olunmuşdur (həcm %):

| | |
|---|---|
| Aloe şirəsi | 35-60 |
| Aloe yağı | 10-15 |
| Mərsin yağı | 9-17 |
| Gicitkən yağı | 5-10 |
| Gənəgərçək yağı | 7-11 |
| Rozmarin yağı | 9-12 |

---

**BÖLMƏ C**

**KİMYA; METALLURGİYA**

**C 01**

**(21) a 2024 0102**
**(22) 14.06.2024**
**(51)** ***C01B 3/24*** (2006.01)
***C01B 32/05*** (2006.01)
***B01J 10/00*** (2006.01)
**(31) 102021000029045**
**(32) 16.11.2021**
**(33) IT**
**(86) PCT/IB2022/060932, 14.11.2022**
**(87) WO/2023/089471, 25.05.2023**
**(71) NEKSTKEM TEK S.P.A. (IT)**
**(72) EPŞTEYN, Mixael (IL)**
**YAKVANYELO, Qaetano (IT)**
**SALLADİNİ, Annarita (IT)**
**BORGONYA, Alessiya (IT)**
**PALO, Emma (IT)**
**(74) Yaqubova Tura Adinayevna (AZ)**
**(54) METANIN VƏ AŞAĞI $CO_2$ EMİSSİYALI KARBOHİDROGENLƏRİN KREKİNQİ YOLU İLƏ HİDROGEN ƏLDƏ ETMƏK ÜÇÜN ÜSUL VƏ QURĞU**

**(57)** Əridilmiş metal və/və ya duz kütləsindən ibarət mühitdə qaz halında hidrogen və bərk karbon əldə etmək üçün karbohidrogenlərin krekinq üsulu onunla fərqlənir ki, krekinq reaksiyasının getməsi üçün tələb olunan istilik qeyd edilən əridilmiş kütləyə batırılmış elektrodların yaratdığı elektrik sahəsinin tətbiq edilməsi nəticəsində elektrik cərəyanının bilavasitə qeyd edilən əridilmiş kütlədə dövr etdirilməsi sayəsində yaradılır.

---

**(21) a 2024 0089**
**(22) 27.05.2024**
**(51)** ***C01F 7/26*** (2006.01)
**(71) Akademik M.Nağıyev adına Kataliz və Qeyri-üzvi Kimya İnstitut**
**(72) Həmidov Rəhman Hüseyn oğlu (AZ)**
**Tahirli Hilal Muradxan oğlu (AZ)**
**Tağıyev Dilqəm Bəbir oğlu (AZ)**
**Məmmədov Asif Nəsib oğlu (AZ)**
**(54) "ALUNİT FİLİZİNDƏN ALÜMOKALİUM ZƏYİNİN ALINMA ÜSULU"**

**(57)** İxtira qeyri-üzvi kimya sahəsinə, xüsusilə alunit filizindən alümokalium zəyinin alınma üsuluna aiddir.

İxtiranın mahiyyəti ondan ibarətdir ki, filizin qələviləşməsi və sulfatlaşmasından ibarət olan alunit filizindən alümokalium zəyinin alınma üsulunda, ixtiraya görə dəmirsizləşmiş filiz götürürlər, onu KCl ilə 1:6 mol nisbətində qarışdırırlar və elektrokimyəvi yarımqələviləşdirməyə uğradaraq alınan $K_2SO_4$ ilə bərk qalığın sulfatlaşmasından alınan $Al_2(SO_4)_3$-ı 1:1 nisbətində qarışdırırlar.

---

## C 07

**(21)** **a 2025 0059**
**(22)** **10.04.2025**
**(51)** ***C07C 59/125*** (2006.01)
***C23F 11/10*** (2006.01)
***E21B 43/22*** (2006.1)
**(71)** **ARETN akad. Y.H. Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu (AZ)**
**(72)** **Abbasov Vaqif Məhərrəm oğlu (AZ)**
**İsmayılov İsmayıl Teyyub oğlu (AZ)**
**İsmayılov Teyyub Allahverdi oğlu (AZ)**
**Fərhadova Rəhimə Mahmud qızı (AZ)**
**Abbaszadə Sara Mütəllim qızı (AZ)**
**İsmayılova Xalidə Raufovna (AZ)**
**Əlizadə Rüfanə Asif qızı (AZ)**
**Musayeva Nuranə Mustafa qızı (AZ)**
**Əliyev Tofiq Səxavət oğlu (AZ)**
**Aslanova Səbahət İmran qızı (AZ)**
**(54)** **ETİLENDİAMİNTETRASİRKƏ TURŞUSUNUN MONO- VƏ DİETANOLAMİN KOMPLEKSLƏRİ BAKTERİSİD-İNHİBİTOR KİMİ**

**(57)** İxtira neft-kimya sahəsinə, xüsusilə etilendiamintetrasirkə turşusunun mono- və dietanolamin komplekslərinin sintezinə və sulfatreduksiyaedici bakteriyalara qarşı bakterisidi-nhibitor kimi tətbiqinə aiddir.

İxtiranın mahiyyəti ondan ibarətdir ki, ümumi formulu:



harada ki, $R=CH_2CH_2OH$ və ya $R=(CH_2CH_2OH)_2$ olan etilendiamintetrasirkə turşusunun mono- və dietanolamin kompleksləri bakterisid-inhibitor kimi iddia olunmuşdur.

---

## C 08

**(21)** **a 2025 0045**
**(22)** **01.04.2025**
**(51)** ***C08L 51/00*** (2021.01)
***C08K 3/06*** (2006.01)
***C08K 3/105*** (2006.01)
***C08K 3/24*** (2006.01)
**(71)** **Qəhrəmanov Nəcəf Tofiq oğlu (AZ)**
**(72)** **Qəhrəmanov Nəcəf Tofiq oğlu (AZ)**
**Quliyeva Ofelya Muslat qızı (AZ)**
**(54)** **"POLİMER KOMPOZİSİYASI"**

**(57)** İxtira polimer kimyası sahəsinə, xüsusilə termoplastik elastomerlərin alınmasına aiddir.

İddia edilən polimer kompozisiyası, etilen-heksen birgə polimeri, butadien-stirol kauçuku, kompatibilizator kimi polietilen ilə malein anhidridinin calaq birgə polimeri, tikici agent kimi kükürddən ibarət olub ixtiraya görə əlavə olaraq doldurucu kimi lifli bazaltı, sink stearatı, alizarini komponentlərin aşağıdakı nisbətində saxlayır, küt.%:

| | |
|---|---|
| Etilen-heksen birgə polimeri | 35 - 82 |
| Lifli bazalt | 5-20 |
| Butadien-stirol kauçuku | 10-40 |
| Kompatibilizator -polietilen ilə malein anhidridin calaq birgə polimeri | 1-5 |
| Tikici agent-kükürd | 3 – 7 |
| Sink Stearat | 0.5 -1.5 |
| Alizarin | 0.5 - 1.5 |

---

## C 10

**(21)** **a 2025 0096**
**(22)** **21.05.2025**
**(51)** ***C10G 33/04*** (2006.01)
***E21B 37/06*** (2006.01)
**(71)** **Azərbaycan Dövlət Neft və Sənaye Universiteti PHŞ (AZ)**
**(72)** **Qurbanov Əbdulağa Nəbi oğlu (AZ)**
**Səmədov Atamali Məcid oğlu (AZ)**
**Əliyev Cavad Rasim oğlu (AZ)**
**(54)** **SU-NEFT EMULSİYALARININ PARÇALANMASI, NEFT-MƏDƏN AVADANLIQLARININ KORROZİYADAN VƏ ASFALTEN-QƏTRAN-PARAFİN ÇÖKÜNTÜLƏRİNDƏN MÜHAFİZƏSİ ÜÇÜN TƏRKİB**

**(57)** İxtira neftçıxarma sənayesinə aiddir və su-neft emulsiyalarının parçalanması, asfalten-qətran parafin çöküntülərinin aradan qaldırılması və neft-mədən avadanlıqlarının korroziyadan mühafizəsi üçün istifadə oluna bilər.

İxtiranın mahiyyəti ondan ibarətdir ki, etilen və propilen oksidlərinin qliserin əsasında molekul kütləsi 3000-6000 olan blok birgə polimeri və həlledici - aromatik karbohidrogenlərin qarışığı nefras AP 120/200-dən ibarət olan su-neft emulsiyalarının parçalanması, neft-mədən avadanlıqlarının korroziyadan və asfalten-qətran-parafin çöküntülərindən mühafizəsi üçün tərkib, ixtiraya görə əlavə olaraq, komponentlərin kütlə %-lə aşağıdaki nisbətində, təbii neft turşularının polietilenaminlə kondensləşmə məhsulu olan – imidozalinləri saxlayır:

| | |
|---|---|
| etilen və propilen oksidlərinin qliserin əsasında molekul kütləsi 3000-6000 olan blok birgə polimeri | 5 – 20 |

| | |
|---|---|
| təbii neft turşularının polietilenaminlə kondensləşmə məhsulu olan – imidozalinlər | 15 – 45 |
| aromatik karbohidrogenlərin qarışığı nefras AP 120/200 | qalanı |

---

**(21) a 2025 0051**
**(22) 02.04.2025**
**(51)** ***C10M 119/02*** (2006.01)
***C10M 129/10*** (2006.01)
***C10M 133/12*** (2006.01)
***C10M 137/14*** (2006.01)
**(71) ARETN Aşqarlar Kimyası İnstitutu (AZ)**
**(72) Fərzəliyev Vaqif Məcid oğlu (AZ)**
**Cavadova Həqiqət Əliəşrəf qızı (AZ)**
**Yusifova Aidə Rafiq qızı (AZ)**
**Şamilzadə Tamilla İsrafil qızı (AZ)**
**Dadaşova Təranə Adil qızı (AZ)**
**Yusifzadə Gülşən Qalib qızı (AZ)**
**Məhərrəmova Zəkiyə Kamil qızı (AZ)**
**(54) "ÜFÜRMƏ VƏ ÜFÜRMƏSİZ AVTOTRAKTOR DİZEL MÜHƏRRİKLƏRİ ÜÇÜN MOTOR YAĞI"**

**(57)** İxtira neft-kimya sahəsinə, xüsusilə üfürmə və üfürməsiz avtotraktor dizel mühərrikləri üçün mineral əsaslı motor yağlarının işlənib hazırlanmasına aiddir.

Tərkibində (kütlə.% ilə) çoxfunksiyalı aşqar paketi Lubrizol-4970 (8,2), Viscoplex 5-309 tipli depressator aşqarı (0,2), köpüklənməyə qarşı aşqar ПМС-200А (0,003), mineral yağ-(SN-500)(100-qədər) saxlayan üfürmə və üfürməsiz avtotraktor dizelləri üçün motor yağı iddia olunmuşdur.

---

**C 23**

**(21) a 2024 0153**
**(22) 14.10.2024**
**(51)** ***C23F 11/14*** (2006.01)
***C23F 11/16*** (2006.01)
***C23F 11/167*** (2006.01)
***C02F 5/00*** (2006.01)
**(71) "Neftqazelmitədqiqatlayihə" institutu (AZ)**
**(72) İsmayılov Fəxrəddin Səttar oğlu (AZ)**
**Vəliyev Famil Qələndər oğlu (AZ)**
**Sultanov Elşən Feyruz oğlu (AZ)**
**Şabanova Zümrüd Abdulmütəllib qızı (AZ)**
**Əliyeva Samirə Bahəddin qızı (AZ)**
**(54) "DÖVRİ SU SOYUTMA SİSTEMLƏRİ ÜÇÜN KORROZİYA VƏ ƏRPƏMƏLƏGƏLMƏYƏ QARŞI İNHİBİTOR"**

**(57)** İxtira kimya sənayesi sahəsinə, xüsusilə metalların korroziyası və duz çöküntüləri ilə mübarizəyə aiddir.

İddia olunan dövri su soyutma sistemləri üçün korroziya və ərpəmələgəlməyə qarşı inhibitor tərkibində (kütlə % ilə), poliepoksikəhrəba turşusunun natrium duzunun suda 40%-li məhlulunu (10-25), poliaspargin turşusunun natrium duzunun suda 40%-li məhlulunu (10-25), ammonium-metabisulfitin suda 7%-li məhlulunu (10-50) və suyu (qalanı) saxlayır.

---

**BOLMƏ E**

**TİKİNTİ VƏ DAĞ-MƏDƏN İŞLƏRİ**

**E 02**

**(21) a 2024 0198**
**(22) 19.12.2024**
**(51)** ***E02D 27/32*** (2006.01)
**(71) Həbibov Fəxrəddin Həsən oğlu (AZ)**
**(72) Həbibov Fəxrəddin Həsən oğlu (AZ)**
**(54) ŞİŞƏN QRUNTLARDA BÜNÖVRƏ**

**(57)** İxtira bünövrə tikintisinə, xüsusilə də şişən qruntlarda svaylı bünövrə konstruksiyalarına aiddir.

İxtiranın məsələsi svaylı bünövrənin elastiksıxılan hərəkətli elementlərinin konstruksiyasının sadələşdirilməsi və onların iş zamanı etibarlığının artırılması ilə bağlıdır.

Şişən qruntlarda bünövrədə, hansı hündürlüyü üzrə yuxarı və aşağı hissələri olan və onların arasında elastiksıxılan materialdan layı olan rostverkdən, hərəsi uzunluğu qruntun aktiv zonasının dərinliyindən kiçik üst qabığı olan svaylardan, hər qabıq rostverkin aşağı hissəsinə sərt birləşdirilib, svayların sütunları isə rostverkin yuxarı hissəsinə sərt birləşdirilib və diametri svayların sütunlarının səthinin və silindrik qabığın daxili səthinin arasının enindən yüksək olan, dairəvi en kəsiyilə elastiksıxılan avtonom detallar şəklində hazırlanmış hərəkətli elementlərden ibarət olub. Hərəkətli elementlər uzunluğu svayın səthinin və kənar qabığın daxili səthinin arasının uzunluğunun ikidən üçə qədər həddlərində uzunluğuna bərabər olan rezinli silindrlərdən hazırlanıb. Bununla belə hərəkətli elementlərin miqdarı hər üfiqi səviyyədə üçə bərabərdi. Yığılmış vəziyyətdə isə onlar svayın sütununun en kəsiyinin dairəsi boyu hər 120° yerləşməlidir.

---

**(21) a 2024 0199**
**(22) 19.12.2024**
**(51) *E02D 27/32*** (2006.01)
**(71) Həbibov Fəxrəddin Həsən oğlu (AZ)**
**(72) Həbibov Fəxrəddin Həsən oğlu (AZ)**
**(54) QİLLİ ŞİŞƏN QRUNTLARDA BÜNÖVRƏ**
**(57)** İxtira bünövrə tikintisinə, xüsusilə də şişən qruntlarda svaylı bünövrə konstruksiyalarına aiddir.

İxtiranın məsələsi svaylı bünövrənin elastiksıxılan hərəkətli elementlərinin konstruksiyasının sadələşdirilməsi və onların iş zamanı etibarlığının artırılması ilə bağlıdır.

Qilli şişən qruntlarda bünövrə, hansı hün-dürlüyü üzrə yuxarı və aşağı hissələri olan və onların arasında elastiksıxılan materialdan layı olan rostverkdən, hərəsi uzunluğu qruntun aktiv zonasının dərinliyindən kiçik üst qabığı olan svaylardan, hər qabıq rostverkin aşağı hissəsinə sərt birləşdirilib, svayların sütunları isə rostverkin yuxarı hissəsinə sərt birləşdirilib və diametri svayların sütunlarının səthinin və silindrik qabığın daxili səthinin arasının enindən yüksək olan, dairəvi en kəsiyilə elastiksıxılan avtonom detallar şəklində hazırlanmış hərəkətli elementlərdən ibarət olub. Hərəkətli elementlər uzunluğu svayın en kəsiyinin yarısına bərabər olan rezinli silindrlərdən hazırlanır. Bununla belə hər üfiqi səviyyədə hərəkətli elementlərin miqdarı ikiyə bərabərdi. Yığılmış vəziyyətdə isə hərəkətli elementlərin hər növbəti səviyyədə yerləşməsi, onların toreslərinin tohunmaları svayın sütununun en kəsiyinin dairəsi boyu hər 60° yerləş-məlidilər. Bununla belə hər hərəkətli elementlərin cütünün yerləşməsinin üfiqi səviyyələri üçə bölünməlidir.

---

**(21) a 2024 0204**
**(22) 26.12.2024**
**(51) *E02D 3/10*** (2006.01)
**(71) Həbibov Fəxrəddin Həsən oğlu (AZ)**
**(72) Həbibov Fəxrəddin Həsən oğlu (AZ)**
**(54) BÖYÜK DƏRİNLİKLİ LYOSS BATAN QRUNTLARININ HİDROPARTLAYIŞLARLA SIXLAŞDIRILMASI ÜSULU**
**(57)** İxtira batan lyoss qruntlarda bina və qurğuların insanı sahəsinə aiddir.

İxtiranın məsələsi hidropartlayışla sıxlaşdırma üsulunun tikilmiş ərazilərdə istifadəsinin mümkünlüyünün yaradılması, həmdə qrunta sıxlaşdırılmasının effektliyinin artırılması ilə bağlıdır.

Böyük dərinlikli lyyos batan qruntlarının hidropartlayışlarla sıxlaşdırılması üsulu 5-7 m dərinliyi olan konturlu xəndəklərin qazılmasını, drenaj-partlayıcı quyuların qazılmasını, quyuların dibində partlayıcı maddənin yerləşdirilməsini, drenaj-partlayıcı quyuquyulardan batan massivini axıcı konsistensiya vəziyyətinə qədər islanmasını və partlayıcı maddənin partlayıcı yolu ilə qruntun sıxlaşdırılmasını öz tərkibində birləşdirir. Massivin islanmasından sonra konturlu xəndəklərin dibindən batan massivin axırına qədər bərabər addımla quyular qazırlar, bu quyularla onların aşağısından başlayaraq, onlarin bütün hündürlüyünə qədər dondurulma zonaları öz aralarında kəsilənə qədər qruntun dondurulmasını aparırlar.

---

**(21) a 2024 0194**
**(22) 13.12.2024**
**(51) *E02D 3/10*** (2006.01)
**(71) Həbibov Fəxrəddin Həsən oğlu (AZ)**
**(72) Həbibov Fəxrəddin Həsən oğlu (AZ)**
**(54) LYOS BATAN GİLCƏ QRUNTLARININ DƏRİN HİDROPARTLAYIŞLARLA SIXLAŞDIRILMASI ÜSULU**
**(57)** İxtira batan lyoss qruntlarda bina və qurğuların inşaatı sahəsinə aiddir.

İxtiranın məsələsi hidropartlayışla sıxlaşdırma üsulunun tikilmiş ərazilərdə istifadəsinin mümkünlüyünün yaradılması, həmdə qrunta sıxlaşdırılmasının effektliyinin artırılması ilə bağlıdır.

Lyyos batan gilcə qruntlarının dərin hidropartlayışlarla sıxlaşdırılması üsulu 5-7 m dərinliyi olan konturlu xəndəklərin qazılmasını, drenaj-partlayıcı quyuların qazılmasını, quyuların dibində partlayıcı maddənin yerləşdirilməsini, drenaj-partlayıcı quyuquyulardan batan massivini axıcı konsistensiya vəziyyətinə qədər islanmasını və partlayıcı maddənin partlayıcı yolu ilə qruntun sıxlaşdırılmasını öz tərkibində birləşdirir. Massivin islanmasından əvvəl konturlu xəndəklərin dibindən batan massivin axırına qədər bərabər addımla quyular qazırlar. Bu quyularla onların aşağısından başlayaraq, injektortorlardan qrunta bütün hündürlüyə təzyiq altında öz aralarında bərkidici zonaların kəsilməsinə qədər bərkidici məhlul vurulur.

---

**E 21**

**(21) a 2025 0057**
**(22) 09.04.2025**
**(51) *E21B 3/04*** (2006.01)
**(71) Azərbaycan Dövlət Neft və Sənaye Universiteti (AZ)**
**(72) Bağırov Eldar Həsən oğlu (AZ)**
**Həbibov İbrahim Əbülfəz oğlu (AZ)**
**Əliyeva Sevda Yaqub qızı (AZ)**
**(54) QAZMA ROTORUNUN KONUS DİŞLİ ÇARXININ DİŞLƏRİ ARASINDAKI YAN**

**ARABOŞLUĞUNUN ÖLÇÜLMƏSİ ÜSULU**

**(57)** İxtira neft və qaz quyularının qazılması sahəsinə, məhz neft və qaz quyularının qazılması prosesində geniş istifadə olunan rotor qurğularının istismarı və yığılması texnologiyasının təkmilləşdirilməsinə aiddir.

İxtiranın mahiyyəti ondan ibarətdir ki, aparan və aparılan konus dişli çarxlarının radial və çevrəvi araboşluqlarının, rotorun aparan valının üzərindəki dişli çarxı dayanana qədər sola və sağa döndərilməklə indikator vasitəsilə ölçülməsindən ibarət olan qazma rotorunun konus dişli çarxının dişləri arasındakı yan araboşluğunun ölçülməsi üsulunda, ixtiraya görı, ölçməni, ölçü alətinin gövdəsinin silindrik hissəsinin rotorun aparan valının üzərinə quraşdırılması və onun sıxıcı vint vasitəsilə rotorun valına təsbit olunması, bundan sonra aparan valı dayanana qədər sola və sağa döndərməklə üzərində su tarazı olan və ölçü alətinin gövdəsinin istənilən vəziyyətində şaqulil dayanan, uc hissəsi nazik ox formasında hazırlanan rəqqas vasitəsilə gövdə üzərindəki noniusdan dəqiq ölçünün götürülməsi vasitəsilə həyata keçirirlər və dişlər arasındakı araboşluğunu aradan qaldırmaq üçün rotorun əsas yastığının altına qoyulması nəzərdə tutulan tənzimləyici halqanın qalınlığını təyin edirlər.

---

**(21)** **a 2024 0190**
**(22)** **11.12.2024**
**(51)** ***E21B 33/03*** (2006.01)
**(71)** **"Bakı Neft Maşınqayırma Zavodu" MMC (AZ)**
**(72)** **Kərimov Mürvət Yusif oğlu (AZ)**
**Qarayeva Mətanət Cümşüd qızı (AZ)**
**(54)** **QUYULARIN İSTİSMAR KƏMƏRİNİN QUYUAĞZI BAŞLIĞININ SINAQ TƏRTİBATI**

**(57)** İxtira neftqazçıxarma sənayesinə aiddir.

İxtiranın mahiyyəti ondan ibarətdir ki, fantan armaturunun boru başlığından, plaşkalı preventordan, təzyiq alunda maye ötürücü borudan, kipləşdiricidən, kanalları olan gövdə quyuların istismar kəmərinin quyuağzı başlığının sınaq tərtibatından ibarət olan quyuların istismar kəmərinin quyuağzı başlığının sınaq tərtibatı, ixtiraya görə, kanalları olan gövdə içərisində rezin həlqəli konusvari içlik, onunla qarşılıqlı əlaqədə olan quyruqlu və konuslu eləcə də quyunun istismar kəmərinin daxili səthi ila əlaqəli kipkəcli və aşağı silindirdə yerləşdirilmiş porşenlidir.

---

## BÖLMƏ F

## MAŞINQAYIRMA, İŞIQLANMA, İSİTMƏ, SİLAH VƏ SURSAT, PARTLATMA İŞLƏRİ

### F 04

**(21)** **a 2024 0070**
**(22)** **15.04.2024**
**(51)** ***F04D 13/10*** (2006.01)
**(71)** **Bayramov Elman Eyvaz oğlu (AZ)**
**(72)** **Bayramov Elman Eyvaz oğlu (AZ)**
**(54)** **QUM TƏZAHÜRÜ OLAN NEFT QUYULARININ İSTİSMARI ÜÇÜN KOMBİNƏ OLUNMUŞ DALMA NASOS QURĞU**

**(57)** İxtira laydan gələn mexaniki qarışıqdan elektrik mərkəzdənqaçma dalma nasos qurğusunun mühafizəainin təmin olunmasına aid olmaqla neftmədən avadanlıqlarına şamil olunub.

İxtirada qarşıya qoyulan məqsəd elektrik mərkəzdənqaçma dalma nasos qurğusunun iş müddətinin uzadılmasını və neft quyusunun səmərəli istismarını təmin etməkdir.

Kombinə edilmiş dalma nasos qurğusu təqdim olunur, hansı ki, elektrik mühərrikindən, elektrik mühərrikinin oxuna bərkidilərək mərkəzdənqaçma dalma nasosunun girişinə quraşdırılmış qumayırıcıdan, dalma nasosundan, daha sonra dalma nasosunun çıxışında boğucu saplosu olan şırnaqlı nasosdan ibarət olmaqla, nasos kompressor boruları ilə neft və qum qarışığını quyuağzına qaldırmağa xidmət edir, qumayırıcı həlqəvi fəza yaradan daxili və xarici vtulkalardan – borucuqlardan ibarət olub daxili vtulka elektrik mühərrikinin oxuna bərkidilir, onun xaricinə bir-biri ilə 120° bucaq təşkil etməklə və xarici vtulkanın da dayanıqlığını təmin edən qanadlar mövcuddur, vtulkalararası həlqəvi fəzada neftin axını üçün keçid əmələ gəlir, qanadların hündürlüyü daxili vtulkaların hündürlüyünə bərabərdir, xarici vtulkanın hündürlüyü isə qanadların dayanıqlığı şəraiyinə əsasən seçilir.

Təqdim olunan qurğu əvvəlcədən mexaniki qarışıqdan təmizlənmiş neft hesabına mərkəzdənqaçma elektrik dalma nasosunun uzun müddət fasiləsiz işləməsini təmin edəcək, istismar quyularının təmirlərarası iş müddətini artıracaqdır.

---

### F 24

**(21)** **a 2024 0151**
**(22)** **10.07.2024**
**(51)** ***F24J 3/02*** (2006.01)
**(71)** **AR ETN Radiasiya Problemləri İnstitutu (AZ)**

**Salamov Oktay Mustafa oğlu (AZ)**
**(72) Salamov Oktay Mustafa oğlu (AZ)**
**Yusubov Şahid Tahir oğlu (AZ)**
**Əzizova Lalə Əlisəttar qızı (AZ)**
**Əliyev Fərhad Fəqan oğlu (AZ)**
**Salmanova Firuzə Əziz qızı (AZ)**
**Mahmudova Təranə Əliməmməd qızı (AZ)**
**Qasımova Sevda Böyükağa qızı (AZ)**
**Məhərrəmov Əbülfəz Rəhim oğlu (AZ)**
**(54) PNEVMATİK GÜNƏŞ NASOS QURĞUSU**
**(57)** İxtira energetika, xüsusən də alternativ energetika sahəsinə aid olub, günəş enerjisindən istifadə etməklə fermer təsərrüfatları, fərdi evlər, ictimai yaşayış binaları və bağ evlərini, həmçinin də bir-sıra strateji əhəmiyyətli obyektləri içməli və suvarma suyu ilə təmin etmək məqsədilə istifadə oluna bilər.

İxtiranın məsələsi qurğunun işinin etibarlılığını, məhsuldarlığını və tətbiq imkanını artırmaq, işinin fasiləsizliyini təmin etmək, sxematik quruluşunu sadələşdirmək və maya dəyərini aşağı salmaqdan ibarətdir.

Qarşıya qoyulan məsələ onunla öz həllini tapır ki, ixtiraya görə təklif olunan qurğuda kompressor kimi elektrik komressorundan istifadə edilir, hansı ki, invertorun (1) 50 Hs tezlikli dəyişən cərəyan üçün çıxışından qidalanır və birinci hava ventili (HV) vasitəsilə resiverlə (R) əlaqəlidir. I-un sabit cərəyan üçün girişi kontroller (K) vasitəsilə günəş-fotoelektrik cərəyan mənbəyinin çıxışı ilə əlaqəli olan akkumulyator batareyası blokuna qoşulub. İ və K öz aralarında əks əlaqəyə malikdir. Kompressor qida dövrəsinə R-in üzərində quraşdırılmış elektrik kontaktlı təzyiq relesinin kontaktı və əl ilə idarə olunan elektrik açarından keçməklə qoşulub, hansılar ki, öz aralarında ardıcıl birləşib. Pnevmatik su nasosu kimi, membranlı pnevmatik nasodan istifadə edilir, hansı ki, üfüqi istiqamətli hərəkətləri pnevmomühərrik (PM) tərəfindən sıxılmış hava (SH) vasitəsilə idarə olunan sol və sağ membranlar vasitəsilə biri birindən izolə edilmiş iki işçi kameradan (İK) ibarətdir. PM-in SH üçün girişi ikinci HV vasitəsilə R-in çıxışı ilə, çıxışı isə atmosferlə əlaqəlidir. İK-lar yuxarı və aşağı tərəflərdən klapanla (K1) təchiz olunub. Aşağı tərəfdəki Kl-lar ümumi giriş borusu vasitəsilə su mənbəyi ilə, yuxarı tərəfdəki KLlar isə ümumi çıxış borusu (ÇB) vasitəsilə yuxarı səviyyədə yerləşən, üst divarında atmosferlə bilavasitə əlaqəli olan borucuq, yan divarının aşağı hissəsində isə çıxış xətti quraşdırılmış su çəninin (SÇ) girişi ilə əlaqəlidir. Ümumi ÇB-nun və SÇ-nin çıxış xəttinin üzərində, müvafiq olaraq birinci və ikinci drenaj ventilləri, R-in üst divarında isə maksimal təzyiq relesi quraşdırılıb.

Təklif olunan nasos sadə konstruksiyaya, aşağı maya dəyərinə və uzun ömür müddətinə malik olub, özülü və iri cisimlərlə zəngin mayeləri çox asanlıqla və fasiləsiz şəkildə ötürmək məqsədilə istifadə olina bilər.

---

## BOLMƏ G

## FİZİKA

## G 06

**(21) a 2024 0165**
**(22) 04.11.2024**
**(51) *G06F 3/00*** (2006.01)
**(71) Həsənli Emil Ramil oğlu (AZ)**
**(72) Həsənli Emil Ramil oğlu (AZ)**
**(54) MƏLUMATIN DAXİL EDİLMƏSİ ÜÇÜN QURĞU**
**(57)** İxtira hesabiama texnikasına, yəni qurğunun xarici aləmiə qarşılıqlı əlaqəsini təmin etməyə və istifadəçinin toxunuşunu nəzərə almağa imkan verən "kompüter siçanı" tipli informasiya daxiletmə qurğusuna aiddir.

İxtiraya görə, informasiya daxiletmə qurğusu üst hissəsində sol və sağ düymənin yerləşdiyi korpusdan ibarətdir, düymələrin daxili səthində müvafiq olaraq maqnitlər və korpusun daxilindəki əsasa Holl effekti sensorları - datçikləri qoyulub, idarəetmə bloku sol və sağ düyməyə basmaqla informasiyanınötürülməsi və aktivləşdirmə hündürlüyünün verilən parametrlərinin proqram tənzimlənməsi funksiyaları ilə yerinə yetirilib, idarəetmə bloku qurğunun arxa hissəsində yerləşir, qurğunun üst hissəsi isə əsasa və yan səthlərə bərkidilib, bu halda əsasla sol-sağ düymələr arasında məsafəni tənzimləmək imkanı da nəzərdə tutulub, sol yan səthdə barmaq izlərini tanıma sensoru, sol və sağ düymələr arasında isə sensor displeyi yerləşir ki, bu da oxunan informasiyaya münasibətdə həssaslığın korrektə edilməsini təmin edir və sorğu edilən verilənlərin əks etdirilməsi imkanını yaradır, qurğunun ön hissəsindəki siçanın sol və sağ düymələri yan sətndən olmaqla, daxili boşluğa daxilolmanı istisna etmək üçün profilin təkrarlanması ilə yerinə yetirlib, idarəetmə blokunda mikrokontroller Holl effekti sensorlarınınm altında yerləşən tranzistorlar və rezistorlardan ibarət dövrə vasitəsilə optik sensorla əlaqələndirlib, bu həllin məqsədi analoq verilənlərin optimallaşdırılması və ləngimələrin azaldılması məqsədilə tətbiq edilmişdir, bu halda qurğuda hündürlük haqqında analoq verilənlərin təhlili və diskret informasiyanın optik sensorlu modula ötürülməsi üçün – siçanın

düyməsini basma imitasiyası məqsədilə üçün əlavə mikrokontroller nəzərdə tutulub.

---

**BOLMƏ H**

**ELEKTRİK**

**H 04**

**(21) a 2024 0132**
**(22) 02.09.2024**
**(51) *H04B 10/12*** (2006.01)
***G02B 6/10*** (2006.01)
**(71) Azərbaycan Texniki Universiteti (AZ)**
**(72) Vəliyev Vilayət Məmməd oğlu (AZ)**
**Əlizadə Rasim İsmayıl oğlu (AZ)**
**Hüseynzadə Könül Rüfət qızı (AZ)**
**(54) ROBOTLAŞDIRILMIŞ MEXATRONİK SİSTEM**

**(57)** İxtira robototexnika sahəsinə, xüsusilə robotlaşdırılmış mexatronik sisteminə aiddir.

İxtiranın mahiyyəti ondan ibarətdir ki, Robotlaşdırılmış mexatronik sistem, sağ və sol tərəfdə olmaqla robotun uzununa oxuboyu simmetrik şəkildə yerləşmiş və bir-biri ilə konik diferensial mexanizmlə əlaqələnmiş iki ədəd nəqliyyat şassisindən, mexatronik ötürmələrlə təchiz olunmuş altı ədəd təkərdən ibarət olan robotlaşdırılmış mexatronik sistemində, ixtiraya görə,nəqliyyat şassisinin tərkibində iki ədəd beş bəndli istiqamətləndirici lingli mexanizm daxil olmuş, iki vahid uzunluğunda iki bəndi və üç ədəd fırlanma oynağı olan sürgüqolu sisteminin mərkəzi ilə bir vahid uzunluğunda iki bəndi və üç kinematik fırlanma cütü olan digər sürgüqolu sisteminin kənar oynaqları birləşdirilir, yaranmış beşbəndli istiqamətləndirici lingli mexanizmin yuxarı və aşağı oynaqları yaylı birləşdirir, bununlada mexanizmin bogie sistemində aslı olmayan qapalı konturların sayı ikiyə, hərəkətli bəndlərin sayı dördə, oynaqların sayı beşə bərabərdir.

---

**BÖLMƏ A**

**İNSANIN HƏYATİ TƏLƏBATLARININ TƏMİN EDİLMƏSİ**

**A 61**

**(11) İ 2025 0078**
**(51)** ***A61C 13/105*** (2006.01)
**(21) a 2024 0122**
**(22) 31.07.2024**
**(44) 31.01.2025**
**(71) İmanov Elnur Ədalət oğlu (AZ)**
**(72) İmanov Elnur Ədalət oğlu (AZ)**
**Həsənov Mürsəl Əlinadir oğlu (AZ)**
**(54) "DİŞ PROTEZİ VƏ ONUN HAZIRLANMASI ÜSULU"**
**(57)** 1. Diş protezi onunla xarakterizə olunur ki, çənəaltı oyuqları əhatə edən metal konstruksiya saxlayır, konstruksiyanın yuxarı hissəsində içi maye ilə doldurulmuş silikon tutum yerləşərək, silikon tutuma sıxılma imkanı ilə quraşdırlmış süni dişlərlə, və metal konstruksiyanın altında yerləşən və tırtucu qanadlar ilə əlaqələnən, mayenin çənəaltı boşluğa verilməsi üçün borunun yerləşdiyi çənə-dilaltı xəttə qədər çatan boşluqla əlaqələnib, bu zaman silikon tutumun xarici yan səthində mayenin boru ilə geriyə silikon tutuma axması və protezin çıxarılması təmin olunmaqla blokdan çıxarma düyməsi yerləşib, bu zaman metal konstruksiya damağı əhatə edən plastik hissə ilə birləşib, əsasən metal konstruksiyanın ön tərəfində, yəni frontal dişlərin aşağı hissəsində tutucu qanadlann məsafəsən hərəkət etdirilməsi yolu ilə çənəaltı oyuqda yerləşdirilməsi üçün nəzərdə tutulmuş mikromotor yerləşdirilib, bu zaman mikromotor ötürücü qurğuya qoşulub, mikromotordan sağa və sola iki şaxə ayrılır, metal konstruksiyanın daxilindən arxa hissəsinə doğru hərəkət edir və hərəkət etdirmə qurğusunun hərəkətini - ötürücü məftil ilə mikromotordan gələn siqnalın işə salınmasını, və tutucu qanadların yerdəyişməsini təmin edən qurğu ilə birləşir, bu zaman tutucu qanadlar metal konstruksiyanın sağ və sol dil tərəflərində quraşdırılıb, qanadlar çənəaltı dəliyə daxil olaraq protezin ağız boşluğundan çıxmasının qarşısını alır, bu zaman yarıqlar vasitəsilə çənə modeli üzərində metal konstruksiyanın daxilində elementlərin dəqiq yerləşdirilməsi təmin edilir, belə ki, metal konstruksiya çənənin ölçüsündən asılı olaraq içəriyə və xaricə açılmaq imkanı ilə yerinə yetirilib, bundan başqa protez məsafədən idarə etmə pultunda yerləşən sıxma/açma düymələri vasitəsilə tutma qanadlarının məsafədən idarə olunması imkanı ilə yerinə yetirilib.

2. Protezin hazırlanması üsulu, onunla xarakterizə olunur ki, aşağıdakı mərhələlərdən ibarətdir: ağız boşluğunun anatomik - fizioloji xüsusiyyətləri nəzərə alınmaqla, xəstədən ölçünün götürülməsi, ölçülərə uyğun modelin tökülməsi, çıxarılan modelin skanerlə skan edilməsi, metal tozunun əridilməsi və ya laylarla nizama salınması yolu ilə metal təbəqənin yaradılması, stabilləşdirici protezin alınan metal konstruksiyasının çənə modeli üzərində yerləşdirilməsi, metal konstruksiya üzərində layihəsi düzəldilmiş silikonaralıqların yoxlanması, okkluziya üçün uyğun olan süni dişlərin metal konstruksiya üzərində quraşdırılması, kompozisiyanın mum əsasında hazırlanması, mumun akril plazma ilə əvəz edilməsi zamanı dişlərdəki amortizatoriarın öz funksiyasını itirməməsi üçün dişlərin elastik hissəsinin mumdan kənarda saxlanması, protez üzərindəki mum konstruksiyasının metal konstruksiyanın olduğu vannada onun üzərinə gips damcılatmaqla akril plazma ilə əvəz edilməsi, vannanın isti suya yerləşdirilməsi, ardınca yaxalanması, mum boşluğunun bərk akril tərkibli plazma ilə əvəz edilməsi, 20 dəqiqə qaynadıldıqdan sonra akril tərkibli plazmanın sərtləşməsinin təmin edilməsi, bu zaman vannanı açırlar və protezdəki gips qalıqlarını təmizləyirlər, ikinci dəfə elastik əsası, dişlərdə amortizasiya saxlanmaqla, dişlərin boyun nahiyə-sində yastıq yaradan yumşaq protez materialı ilə əvəz edirlər, mayenin silikon metal konstruksiyanın içərisinə yerləşdirilməsi, hazır stabil protezin xəstənin ağız boşluğuna yerləşdirilməsi.

---

**(11) İ 2025 0080**
**(51)** ***A61Q 19/00*** (2006.01)
***A61Q 19/08*** (2006.01)
***A61K 8/46*** (2006.01)
***A61K 36/61*** (2006.01)
***A61P 31/00*** (2006.01)
**(21) a 2023 0054**
**(22) 11.04.2023**
**(44) 31.05.2024**
**(71) Həsənova Arzu Abbasəli qızı (AZ)**
**(72) Həsənova Arzu Abbasəli qızı (AZ)**
**(54) "KİMYƏVİ PİLİNQ ÜÇÜN KOSMETİK VASİTƏ"**
(57) Kimyəvi pilinq üçün kosmetik vasitə, dimeksid əsasında olub, onunla fərqlənir ki, o əlavə olaraq xlorofilliptin 2%-li spirtli məhlulununu komponentlərin aşağıdakı nisbətində saxlayır, ml:

| | |
|---|---|
| Xlorofilliptin 2%-li spirtli məhlul | 10 ml |
| Dimeksidin 99%-li konsentrat | 90 ml. |

---

**BÖLMƏ C**

**KİMYA; METALLURGİYA**

**C 04**

**(11) İ 2025 0077**
**(51)** ***C04B 26/12*** (2006.01)
***C04B 26/32*** (2006.01)
***C04B 28/26*** (2006.01)
***C04B 30/02*** (2006.01)
***C04B 111/28*** (2006.01)
**(21) a 2023 0112**
**(22) 09.08.2023**
**(31) 21161398.9**
**(32) 09.03.2021**
**(33) EP**
**(86) PCT/EP 2022/055895, 08.03.2022**
**(87) WO/2022/189433 A1, 15.09.2022**
**(44) 31.01.2025**
**(71) ARMASELL ENTERPRAYZ GMBX AND KO. KQ**
**(72) ZOMBER, Patrik (DE)**
**XOLUB, Pavel (DE)**
**MOLLER, Stefan (DE)**
**ÇJEN, Çjiçen (DE)**
**(54) "AEROGEL HİSSƏCİKLƏR VƏ KERAMİK LİFLƏR DAXİL OLAN KOMPOZİT MƏMULATIN ALINMASI ÜSULU"**

**(57)** 1. Tərkibinə aerogel hissəcikləri və keramika liflər daxil olan kompozit məmulatın alınması üsulunu aşağıdakı mərhələlərlə həyata keçirirlər: keramika liflər daxil olan lifli məmulat formalaşdırırlar, aerogel tozdan və üzvi həllediciden ibarət olan aerogel kompozisiyası formalaşdırırlar, lifli məmulatı və aerogel kompozisiyasını birləşdirirlər, və kompozit məmulatın əldə edilməsi üçün üzvi həlledicini qismən və ya bütövlükdə xaric edirlər.

2. Kompozit məmulatın alınması üsulu, ixtira düsturunun 1-ci bəndi üzrə onunla fərqlənir ki, keramika liflərinin kütləsi 80% və ya daha çox alüminium oksidi təşkil edir, belə ki, keramika lifləri, keramika liflərin ümumi kütləsinə nisbətdə silisium oksidi və alüminium oksiddən fərqli olan kütləsi 2% təşkil edən komponentlərə malikdir.

3. Kompozit məmulatın alınması üsulu, ixtira düsturunun 1-ci bəndi üzrə onunla fərqlənir ki, keramika lifləri, keramik liflərinin ümumi kütləsinə nisbətdə kütləsi 2-dən 80%-dək az olmayan alüminium oksid və 10-dan 98%-dək silisium dioksid təşkil edir.

4. Kompozit məmulatın alınması üsulu, ixtira düsturunun 1-ci bəndi üzrə onunla fərqlənir ki, keramika liflərin tərkibinə kütləsi 2%-dən az olan alüminium dioksid, kütləsi 50÷85% silisium dioksid və kütləsi 15÷50% qələvi torpaq metal oksidi daxildir.

5. Kompozit məmulatın alınması üsulu, ixtira düsturunun yuxarıda sadalanmış bəndlərinin istənilәni üzrə onunla fərqlənir ki, üzvi həlledici karbohidrogen həlledicisindən və ya spirtli həllediciden və ya sadalananların istənilən qatışığından ibarətdir.

6. Kompozit məmulatın alınması üsulu, ixtira düsturunun yuxarıda sadalanmış bəndlərinin istənilәni üzrə onunla fərqlənir ki, aerogel, silisium dioksid aerogelindən ibarətdir.

7. Kompozit məmulatın alınması üsulu, ixtira düsturunun yuxarıda sadalanmış bəndlərinin istənilәni üzrə onunla fərqlənir ki, aerogelin məsaməliliyi absorbsiya və desorbsiya izotermi vasitəsi ilə təyin edilmiş, 85% və ya daha yüksəkdir.

8. Kompozit məmulatın alınması üsulu, ixtira düsturunun yuxarıda sadalanmış bəndlərinin istənilәni üzrə onunla fərqlənir ki, DIN ISO 9277 2003-05 üzrə təyin edilmiş, aerogelin səthinin xüsusi sahəsi 300 $m^2$/q və ya daha çox sahə təşkil edir.

9. Kompozit məmulatın alınması üsulu, ixtira düsturunun yuxarıda sadalanmış bəndlərinin istənilәni üzrə onunla fərqlənir ki, aerogel kompozisiyası, aerogel tozunun üzvi həlledicidə dispersiyasından ibarətdir və aerogel tozunun və üzvi həlledicinin aerogel kompozisiyasında, birləşdirilmiş tərkibi, aerogel kompozisiyasının ümumi kütləsinə nisbətdə kütləsi 90% və ya daha yüksəkdir.

10. Kompozit məmulatın alınması üsulu, ixtira düsturunun yuxarıda sadalanmış bəndlərinin istənilәni üzrə onunla fərqlənir ki, aerogel kompozisiyasını, lifli məmulata daxil etmək vasitəsi ilə və ya lifli məmulatı aerogel kompozisiyası ilə hopdurmaq vasitəsi ilə, lifli məmulatı və aerogel kompozisiyasını birləşdirirlər.

11. Kompozit məmulatın alınması üsulu, ixtira düsturunun yuxarıda sadalanmış bəndlərinin istənilәni üzrə onunla fərqlənir ki, kompozit məmulatın tərkibinə, kompozit məmulatın ümumi kütləsinə nisbətdə, kütləsi 15÷70% aerogel daxildir.

12. Kompozit məmulatın alınması üsulu, ixtira düsturunun yuxarıda sadalanmış bəndlərinin istənilәni üzrə onunla fərqlənir ki, kompozit materialın liflərinin ən azı 50% uzunluğu 10mm və ya daha çox təşkil edir.

13. Kompozit məmulatın alınması üsulu, ixtira düsturunun yuxarıda sadalanmış bəndlərinin istənilәni üzrə onunla fərqlənir ki, kompozit məmulatın bir və ya daha çox aerogellərin, bir və ya

daha çox liflərə (aerogelə/lifə) kütləsinə nisbəti 1:4 və ya daha yüksəkdir.

14. Aerogel hissəcikləri və keramika lifləri daxil olan kompozit məmulat, onunla fərqlənir ki, ən azı (i) və (ii) tələbləri yerinə yetirilmişdir: (i) kompozit materialın tərkibinə kütləsi 15% təşkil edən üzvi birləşmələr daxildir; (ii) kompozit məmulatın liflərinin ən azı 50% 5mm və ya daha çox uzunluğa malikdir; (iii) kompozit materialın tərkibinə, kütləsi 10%-dən aşağı bağlayıcı daxildir; (iv) kompozit məmulat termoqravimetrik analiz (TGA) zamanı azot mühitində, 30°C-dən 1100°C-yə qədər qızdırıldıqda, temperaturun 10°C/dəqiqə, kütləsi 35%-dən az olmayaraq, ümumi kütləsini itirir; (v) kompozit məmulatda bir və ya bir neçə aerogellərin, bir və ya bir neçə liflərə (aerogel/lif) nisbətdə kütləsi 1:8-ə bərabərdir və ya daha yüksəkdir; (vi) kompozit materialın yanma müddəti 60 dəqiqə və ya daha çox təşkil edir, belə ki, kompozit məmulatın yanmaya qarşı davamlılığı qalınlığı 1-dən 3mm-ə qədər təşkil edən DIN a4 şəkilli lövhədən istifadə etməklə və kompozit məmulatın emalının onun birinci əsas səthinin mərkəzini 1400°C temperatura malik olan alovla lehimləmə odluğunun istifadəsi ilə həyata keçirirlər, belə ki, yandırma müddətinin davamiyyəti, alovla yandırmanın əvvəlindən, ikinci əsas səthin temperaturu 1000°C təşkil edənə qədər davam etdirilir.

15. Kompozit məmulatın alınması üsulu, 14-cü bəndi üzrə onunla fərqlənir ki, ixtira düsturunun 1÷13-cü bəndlərinin istəniləni üzrə kompozit məmulatı əldə edirlər.

---

**C 23**

**(11) İ 2025 0079**
**(51)** ***C23F 11/00*** (2006.01)
***C23F 11/14*** (2006.01)
***C08F 220/12*** (2006.01)
***C10M 149/00*** (2006.01)
**(21) a 2023 0133**
**(22) 28.09.2023**
**(44) 31.01.2025**
**(71) Azərbaycan Dövlət Neft və Sənaye Universiteti (AZ)**
**(72) Naibova Tamilla Muxtar qızı (AZ)**
**Həsənov Qəhrəman Söyün oğlu (AZ)**
**Məmmədova Aytən Əli qızı (AZ)**
**Əliyeva Zahidə Nazim qızı (AZ)**
**Əliyeva Aysel Yasin qızı (AZ)**
**Quliyeva Gülcamal Vüsal qızı (AZ)**
**(54) "KORROZİYA İNHİBİTORU"**
**(57)** Ümumi formulu:




harada ki, n=3÷5
olan karbamid-rezorsin-formaldehid sooliqomerinin neft-mədən avadanlığının korroziyasının inhibitoru kimi tətbiqi.

---

**BOLMƏ E**

**TİKİNTİ VƏ DAĞ-MƏDƏN İŞLƏRİ**

**E 21**

**(11) İ 2025 0082**
**(51)** ***E21B 43/04*** (2006.01)
***E21B 43/08*** (2006.01)
***E21B 34/08*** (2006.01)
***E21B 43/10*** (2006.01)
**(21) a 2023 0034**
**(22) 27.02.2023**
**(31) 63/072,307**
**(32) 31.08.2020**
**(33) US**
**(86) PCT/US2021/048157,30.08.2021**
**(87) WO/2022/047281 A1,03.03.2022**
**(44) 31.01.2025**
**(71) ŞLUMBERCER TEKNOLOJİ B.V. (NL)**
**(72) KUMAR, Amrendra (US)**
**(74) Əfəndiyev A.V**
**(54) MƏHDUDLAŞDIRILMIŞ KEÇİD SAHƏSİNƏ MALİK OLAN ƏSAS BORU VƏ ONUN İSTİFADƏSİ İLƏ ÇINQIL TIXACI ÜSULU**

(57) 1. Quraşdırılmış süzgəc qovşağının tərkibinə aşağıdakılar daxildir: əsas boru; əsas borusunun daxilində yerləşdirilmiş daxili boru kolonu; əsas borusunun və daxili sütyunun ətrafında yerləşdirilmiş süzücü qatla təchiz edilmiş çox sayda boru birləşmələri; süzücü qat və əsas boru arasındakı yerləşdirilmiş drenaj qatı; əlaqəli boru birləşmələri arasında yerləşdirilmiş drenaj qatı birləşdiriciləri, belə ki, əsas borunun tərkibinə drenaj qatı birləşdiricilərinə nisbətdə tarazlaşdırılmış əsas borunun birləşdiriciləri daxildir, belə ki, axın yolu qoruyucu kəmərsiz quyu və boru birləşmələrinin süzücü qatı arasındakı halqavari fəzadan çıxır, süzücü qat və drenaj qatı içərisinə axır, quyu boyunca aşağı istiqamətdə drenaj qatı boyunca, drenaj qatı birləşdiricisi və əsas boru arasındakı halqavari fəzaya keçərək, çox sayda boru

birləşmələrinin ən aşağıda olanına uyğun olan drenaj qatının bir hissəsinə və yer səthinə qayıtmaq üçün ən aşağıdakı boru birləşməsindən keçərək əsas borunun daxilində yerləşən daxili sütunun daxili hissəsinə axın mövcuddur.

2. 1-ci bənd üzrə süzgəc qovşağı onunla fərqlənir ki, süzgəc komplekti, əsas borunun daxilində quyu boyunca aşağı istiqamətdə mövcud deyil.

3. 1-ci və ya 2-ci bəndləri üzrə süzgəc qovşağı onunla fərqlənir ki, əsas boru, aşağıdakılardan ibarət olan qrupdan seçilmiş elementlərdən ən azı biridir: dəliksiz boru; məhdud axın sahəsinə malik olan əsas boru; açıq axın sahəsi sürüşkən mufta ilə bağlanmış açıq axın sahəsinə malik olan dəliksiz boru və tərkibinə ən azı bir giriş axınına nəzarət cihazı daxil olan dəliksiz boru.

4. Yuxarıda sadalanmış bəndlərinin istəniləni üzrə süzgəc qovşağı onunla fərqlənir ki, drenaj qatı birləşdiricisi aşağıdakılardan ibarət olan qrupdan seçilmiş elementlərdən ən azı biridir: silindrik boru; süzücü qat və şuntlama borusu.

5. Yyuxarıda sadalanmış bəndlərinin istəniləni üzrə süzgəc qovşağı onunla fərqlənir ki, çox sayda boru birləşmələrinin ən aşağıdakının tərkibinə ən aşağıdakı süzücü qatı daxildir.

6. Yyuxarıda sadalanmış bəndlərinin istənilənі üzrə süzgəc qovşağı onunla fərqlənir ki, süzgəc komplekti, burada çox sayda boru birləşmələrinin ən aşağıda olanın tərkibinə bütöv boru daxildir.

7. Üsulu aşağıdakı mərhələlərlə həyata keçirirlər: tamamlama kolonunu quyu lüləsinə endirirlər, belə ki, tamamlama kolonunun tərkibinə aşağıdakılar daxildir: tərkibinə aşağıdakılar daxil olan süzgəc qovşağı: əsas boru; əsas borusunun daxilində yerləşdirilmiş daxili boru kolonu; əsas boru və daxili boru kolonunun ətrafında yerləşdirilmiş süzücü qatla təchiz edilmiş çox sayda boru birləşmələri; və süzücü qat və əsas boru arasında yerləşdirilmiş drenaj qatı; çınqıl suspenziyasının qoruyucu kəmərsiz quyu və boru birləşmələrinin süzücü qatı arasındakı xarici halqavari fəzaya çökdürürlər, belə ki, çınqıl suspenziyasının tərkibinə çınqıl və daşıyıcı mühit daxildir; və daşıyıcı maye üçün maye buraxan axın yolunun yaradılması vasitəsi ilə çınqıl suspenziyasını susuzlaşdırırlar, belə ki, maye buraxan axın yolu xarici halqavari fəzadan quyu boşluğundan çıxır, süzücü qata və drenaj qatına daxil olur, quyu boyu aşağı istiqamətdə drenaj qatından keçir, əlaqəli boru birləşmələri və əsas boru arasında yerləşdirilmiş drenaj qatı birləşdiricisi arasındakı quyu halqavari fəzadan keçir, çoxsaylı boru birləşmələrindən ən aşağıda olanına uyğun gələn drenaj qatının bir hissəsinə və yer səthinə qayıtmaq üçün ən aşağıdakı boru birləşməsi yerində olan açıq axın sahəsindən keçməklə əsas borunun içərisində yerləşən daxili kolonununa daxil olur.

8. 7-ci bəndi üzrə üsul onunla fərqlənir ki, maye buraxan axın yolu quyu boyunca aşağı istiqamətdə olan əsas boru boyunca axmır.

9. 7-ci və ya 8-ci bəndlərinin istənilənі üzrə üsul onunla fərqlənir ki, əsas boru aşağıdakılardan ibarət olan qrupdan seçilmiş elementlərdən ən azı biridir: dəliksiz boru; məhdud axın sahəsinə malik olan əsas boru; açıq axın sahəsi sürüşkən mufta ilə bağlanmış açıq axın sahəsinə malik olan əsas boru və tərkibinə ən azı bir giriş axınına nəzarət qurğu daxil olan əsas boru.

10. 7-9-ci bəndlərinin istənilənі üzrə üsul onunla fərqlənir ki, əlaqəli boru birləşmələri arasında yer alan drenaj qatı birləşdiricisi aşağıdakılardan ibarət olan qrupdan seçilmiş elementlərdən ən azı biridir: silindrik boru; süzücü qat və şuntlama borusu.

11. 7-10-ci bəndlərinin istənilənі üzrə üsul onunla fərqlənir ki, çox sayda boru birləşmələrinin ən aşağıda olanın tərkibinə ən aşağıdakı süzücü qatı daxildir.

12. 7-11-ci bəndlərinin istənilənі üzrə üsul onunla fərqlənir ki, çox sayda boru birləşmələrinin ən aşağıda olanının tərkibinə bütöv boru daxildir.

13. 7-12-ci bəndlərinin istənilənі üzrə üsul onunla fərqlənir ki, əsas borunun tərkibinə drenaj birləşdiricilərinə nisbətdə tarazlaşdırılmış tərkibinə əsas boru birləşdiriciləri daxildir.

---

## BÖLMƏ F

## MAŞINQAYIRMA, İŞIQLANMA, İSİTMƏ, SİLAH VƏ SURSAT, PARTLATMA İŞLƏRİ

### F 04

**(11)** **İ 2025 0083**
**(51)** ***F04D 13/10*** (2006.01)
***F04D 29/041*** (2006.01)
**(21)** **a 2023 0024**
**(22)** **13.02.2023**
**(44)** **31.01.2025**
**(71)** **Mirzəliyev Akif Namazəli oğlu (AZ)**
**(72)** **Mirzəliyev Akif Namazəli oğlu (AZ)**
**Əliyev Ramiz Cavad oğlu (AZ)**
**(54)** **KOMPRESSİYALI DALMA ELEKTRİK NASOSU**

**(57)** 1. Kompressiyalı dalma elektrik nasosu gövdədən, onda ardıcıl quraşdırılmış kompensasiya olunan oymaqlardan, işçi çarxlardan, yönəldici aparatlardan, torlu

oturacaqdan və tutucu başlıqdan ibarət olub, onunla fərqlənir ki, oymaqların xarici səthinə işçi çarxlardan və yönəldici aparatlardan əmələ gələn birinci növ işçi pillələr, və işçi çarxlardan və stabilləşdirici sıxıcısı olan təzyiqi artıran aparatlardan əmələ gələn ikinci növ işçi pillələr yerləşdirilmişdir, bu oymaqların daxili səthində isə nasosun radial-ox dayaqları yerləşdirilmişdir, belə ki, xarici və daxili səthlər bir-birindən nasos mayesinin radial-oxlu dayaqlarla təması istisna olunmaqla izolə edilmişdir.
2. 1-ci bənd üzrə kompressiyalı dalma elektrik nasosu, onunla fəqlənir ki, radial ox qüvvələri stabilləşdirici sıxıcı oymaq tərəfindən qəbul edilir.

---

**BOLMƏ H**

**ELEKTRİK**

**H 04**

**(11)** **İ 2025 0081**
**(51)** ***H04B 10/00*** (2006.01)
***H04B 10/12*** (2006.01)
**(21)** **a 2023 0190**
**(22)** **20.12.2023**
**(44)** **31.01.2025**
**(71)** **Həsənov Mehman Hüseyn oğlu (AZ)**
**Namazov Atif Akif oğlu (AZ)**
**Piriyev Sahib Aydın oğlu (AZ)**
**Nəcəfov Baloğlan Kamil oğlu (AZ)**
**Rəsullu Turanə Kamran qızı (AZ)**
**Namazov Cavid Sübhan oğlu (AZ)**
**(72)** **Həsənov Mehman Hüseyn oğlu (AZ)**
**Namazov Atif Akif oğlu (AZ)**
**Piriyev Sahib Aydın oğlu (AZ)**
**Nəcəfov Baloğlan Kamil oğlu (AZ)**
**Rəsullu Turanə Kamran qızı (AZ)**
**Namazov Cavid Sübhan oğlu (AZ)**
**(54)** **ADAPTİV OPTİK ŞƏBƏKƏLƏRİN MONİTORİNQ SİSTEMİ**

**(57)** Adaptiv optik şəbəkələrin monitorinq sistemi optik ölçü cihazından, idarəetmə blokundan, müqayisəedici blokdan, məlumat bazasından ibarət olub, onunla fərqlənir ki, λ1- λn və λ1’- λn’ dalga uzunluqlarını tələb olunan istiqamətlərə ötürmək və qəbul elməklə məlumat bazasının proqram təminatı əsasında bir blok üzərindən idarə olunan optik multipleksor, demultipleksor, kommutator, süzgəc, optik verici və qəbuledicisi olan optik lokator ilə təchiz edilmiş, verilən optik diapazonda optik siqnalların parametrlərinin bərpa olunması və idarə olunmasının adaptiv monitorinq olunması imkanı ilə hazırlanmışdır.

---

